# “Dərslərin təşkilində müəllimlərə tam müstəqillik verilir”



Orxan Kərimzadə 1989-cu ildə Bakı şəhərində anadan olub. 2006-cı ildə Bakıdakı 18 nömrəli tam orta məktəbi əla qiymətlərlə bitirərək Azərbaycan Dövlət Neft Akademiyasının (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) energetika fakültəsinə qəbul olub. 2010-2014-cü illərdə Cənubi Koreyanın KAİST Universitetində elektrik və elektronika ixtisası üzrə ikinci bakalavr təhsili alıb. Hazırda “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində Böyük Britaniyanın London İmperial Kollecində dayanıqlı enerji mənbələri ixtisası üzrə magistr təhsili alır.

## Böyük Britaniyanın London İmperial Kollecinin tələbəsi Orxan Kərimzadə ilə söhbət

**Oruc MUSTAFAYEV**, *“Azərbaycan müəllimi”*
o.mustafayev@muallim.edu.az

Orta məktəb illərində marağım daha çox texniki fənlərə olub. Əsasən fizika, riyaziyyat və coğrafiya fənlərini çox sevirdim. Yuxarı siniflərdə demək olar ki, hər il bir neçə fəndən olimpiadalarda iştirak edirdim. 2005-ci ildə fizika fənnindən rayon, şəhər birincisi və respublika üçüncüsü olmuşam. İxtisas seçiminə gəldikdə deməliyəm ki, uşaqlıqdan mühəndis-kosmonavt olmaq istəyirdim. Artıq məktəb illərindən elektrik və elektronika mühəndisi olmağa qərar verdim. ADNA-da təhsil aldığım ilk ildən proqramlaşdırma ilə məşğul olmağa başladım. Bunun nəticəsi olaraq 2009-cu ildə ACM Proqramlaşdırma üzrə olimpiadanın respublika turunda komanda hesabında II yeri tutduq. Bunun ardından Gürcüstanda keçirilən proqramlaşdırma üzrə dünya və Cənubi Qafqaz çempionatlarında III yerə layiq görüldük.

Ali təhsilə gəldikdə, ilk vaxtlar Bauman adına Moskva Dövlət Texniki Universitetinə qəbul olmağı düşünürdüm, amma sənəd verdiyim vaxt MDTU-dan azərbaycanlı tələbələr üçün yer ayrılmamışdı. Daha sonra ADNA-da təhsil aldığım vaxt Koreyanın Kyunhee Universitetində oxumaq üçün qəbul gəlmişdi. Bir az araşdırdıqdan sonra məlum oldu ki, elektrik mühəndisliyi ixtisası üzrə Koreyanın ən güclü universiteti KAİST-dir. Buna görə də qərara gəldim ki, KAİST-ə sənəd verim. KAİST-də yarımkeçiricilər mövzusunda bir neçə dərs götürmüşəm və beləliklə, günəş enerjisinə, bərpa olunan enerjiyə marağım yarandı. KAİST-i bitirdikdən sonra Bakıya qayıdıb Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyində çalışmağa başladım. Burada çalışdığım müddətdə bu sahəyə daha dərin biliklərə ehtiyac olduğunu anladım və magistr təhsili almağa qərar verdim.

### “Dövlət Proqramı çərçivəsində iki dəfə təhsil almışam”

Mən iki dəfə Dövlət Proqramında iştirak etmişəm. Həm KAİST-də, həm də London İmperial Kollecində Dövlət Proqramı çərçivəsində təhsil almışam. Dövlət Proqramının Azərbaycan üçün dəyərini çox yüksək qiymətləndirirəm. Bu proqram olmasaydı gənclərimizin bir çoxunun xaricdə təhsil alması mümkün olmazdı. Cünki, məsələn, Böyük Britaniyadakı universitetlərin illik təhsil haqqı çox yüksəkdir. Dövlətimiz isə biz gənclərin dünyanın nüfuzlu universitetlərində təhsilini təmin etməklə bizə olan diqqət və qayğısını əsirgəmir. Qeyd etməliyəm ki, son dövrlər Azərbaycan təhsilində aparılan islahatlar göz önündədir. Təhsil elə bir sahədir ki, burada islahatın nəticəsini görmək üçün zaman tələb olunur. Düşünürəm ki, biz doğru yoldayıq. Xarici təcrübədən yararlanmaq və bu prosesdə xaricdə təhsil alan gənclərdən istifadə etmək faydalıdır.

### “Demək olar ki, boş vaxtımız olmur”

KAİST-dən fərqli olaraq İmperialda demək olar ki, boş vaxtımız olmur. Amma vaxtım olanda idmanla məşğul oluram, gitarada mahnı ifa edirəm, mənə maraqlı olan digər sahələrdə kitablar oxuyuram. Həftə sonları çalışırıq ki, azərbaycanlı tələbələrlə görüşək. Artıq 5 ilə yaxındır ki, xarici ölkələrdə yaşadığım üçün adaptasiya məsələsində heç vaxt çətinlik çəkmirəm.

Bizim ixtisas kursunda 10-a yaxın ölkədən gələn tələbələr təhsil alır, onların arasında yunanlar, fransızlar və çinlilər çoxluq təşkil edir.

Qeyd edim ki, universitetimizdə tələbələrin dərsdən əlavə asudə vaxtlarını səmərəli keçirmələri üçün hər cür şərait yaradılıb. Belə ki, böyük idman mərkəzi, idman klubları, sosial və mədəni cəmiyyətlər tam pulsuz fəaliyyət göstərir. Fikrimcə, xaricdə təhsilin əsas üstünlüklərindən biri də odur ki, burada tələbəyə öyrənməyi və müstəqil qərar verməyi öyrədirlər.

### “6 universitetdən qəbul təklifi almışdım”

London İmperial Kollecini seçməyimin əsas səbəbi universitetin reytinqi (2014-2015-ci il QS reytinqində 2-ci yerdə idi) və qəbul aldığım proqramın özəlliyi oldu. Mən Böyük Britaniyada 6 universitetdən qəbul təklifi almışdım. Bizim Dayanıqlı Enerji Proqramı 7 fakültənin birgə yaratdığı bir proqramdır. Proqramın özəlliyi odur ki, biz alternativ və bərpa olunan enerji mənbələrinin bütün istiqamətləri üzrə dərslər keçirik. Həmçinin, texniki tərəflərindən əlavə, bizə həm də iqtisadi mövzuları tədris edirlər. Elmi tədqiqatla məşğul olmağa hələ Neft Akademiyasında oxuduğum vaxtlardan başlamışam. Tədqiqat mövzuları elektromaqnit levitasiya, levitatorların optimallaşdırma məsələləri və naqilsiz elektrik enerjisinin ötürülməsini əhatə edir. Hazırda magistr tezisimin mövzusu olaraq Virtual Elektrik Stansiyaları (Virtual Power Plant) mövzusu üzərində tədqiqat aparıram. Ümumilikdə, bir kitab və on elmi məqalənin müəllifiyəm. Məqalələrim Türkiyə, Rumıniya, Malayziya, Rusiya və İspaniyada beynəlxalq jurnal və konfranslarda təqdim olunub.

Burada müəllim-tələbə münasibətləri çox yüksək səviyyədədir. Müəllimlər keçilən dərsləri mənimsəməyimiz üçün əllərindən gələni edirlər və bu münasibət müəllim-tələbə münasibətindən daha çox dost münasibətidir. Tələbələr kimi müəllimlər də fərqli millətlərin nümayəndələridirlər, ona görə də demək olar ki, burada yerli və ya gəlmə adam anlayışı yoxdur. Universitetimizdə dərslərin təşkilində müəllimlərə tam müstəqillik verilir. Bir sıra dərsləri tədris etmək üçün mütəmadi olaraq xaricdən qonaq mütəxəssislər dəvət olunur. Onlar şirkət rəhbərləri, istehsalat müəssisələrinin və dövlət qurumlarının nümayəndələridirlər. Bizə nəzəri biliklərdən əlavə real iş şəraitində qarşımıza çıxa biləcək problemlər və onların həlli yolları barədə dərslər keçilir.

### “Xaricdə təhsil uğur qazanmağın əsas şərti deyil...”

Mən Koreyada ikinci dəfə bakalavr pilləsində oxumağa gedəndə çoxları məni qınayırdı ki, bir daha 4 il itirəcəksən, amma mən ADNA-da keçilən dərslərlə oradakı dərsləri müqayisə etmişdim və ixtisasın adının eyni olmasına baxmayaraq akademik fərq çox böyük idi. İkinci dəfə xaricdə təhsil almaq qərarımın əsas səbəbi bu idi. İndi verdiyim qərarın nə qədər doğru olduğunu daha çox anlayıram. KAİST-də öyrəndiklərim bu gün İmperialda mənə çox asanlıqlar yaradır. Amma bir şeyi unutmaq lazım deyil ki, xaricdə təhsil uğur qazanmağın əsas şərti deyil. Uğur qazanmağın birinci şərti gördüyün işi sevmək və zövq almaqdır.

KAİST-də təhsil aldığım dövrlərdə bu ölkədəki BUTA Koreya-Azərbaycan Tələbə Təşkilatının İdarə Heyətinin üzvü olmuşam. Koreyada Azərbaycanın təbliği istiqamətində bir neçə mədəni tədbirlərin təşkilində iştirak etmişəm. Nümunə olaraq KAİST-də Xoca filminin nümayişi, bir sıra festivallarda Azərbaycan milli yeməklərinin, 20 Yanvar faciəsi və Xocalı soyqırımı haqqında tədbirləri qeyd edə bilərəm. Onu da bildirmək istəyirəm ki, bu tədbirlərin əksəriyyəti Azərbaycanın Koreyadakı səfirliyinin dəstəyi ilə keçirilib.

Gələcəkdə təhsilimi doktorantura pilləsində davam etdirməyi düşünürəm. Eyni zamanda Azərbaycan üçün alternativ və bərpa olunan enerji mənbələri sahəsində görmək istədiyim işlər də var. Çalışıram ki, bu sahədə fəaliyyət göstərən qurumlarla sıx əlaqə saxlayım və layihələrində əlimdən gələn köməkliyi göstərim. Dediyim kimi, planlar və ideyalar çoxdur.